## Mövzu №1 Nitq inkişafının əsas vəzifələri.

**Plan:**
**1.**İnsanın həyatında nitqin rolu.
**2.**Məktəqədər yaşlı insanların inkişafında ana dili
**3.**Uşağın lüğət ehtiyatının zənginləşdirilməsi.
**4.**Nitqin səs mədəniyyətinin tərbiyyə edilməsi.
**5.**Danışıq mədəniyyətinin formalaşması.

Şəxsiyyətin formalaşması pedaqoji təsirdən, bu təsirin nə qədər tez və əsaslı göstərilməsindən son dərəcə asılıdır.Məhz buna buna görə ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələri xalq maarif sisteminə daxil edilmişdir.Məktəbəqədər tərbiyə müəssisələri hazırda ibtidai təlim üçün möhkəm bünövrə hesab olunur.Uşaq bağçalarının qarşısında uşaqların hərtərəfli inkişaf etdirilməsi vəzifəsi qoyulmuşdur . Bu vəzifənin yerinə yetirilməsində nitq inkişafı da mühüm rol oynayır.

Dilçilər,psixoloqlar,metodistlər və müəllimlərin hər biri nitq inkişafı məsələsini bir həll etməyə çalışır.Bunların içərisində ən qorxulusu odur ki, bəziləri uşaqların nitqinin inkişafını özbaşına gedən bir proses hesab edirlər. Onların fikrincə,uşağın şüuru müxtəlif təsəvvürlər və anlayışlarla zənginləşdikcə ,onun həyat təcrübəsi genişləndikcə nitqi inkişaf edir.Ona görə də nitq inkişafı üzrə xüsusi məşğələlərin təşkilinə ehtiyac yoxdur.

Nitqin insanların həyatında nə qədər mühüm rol oynaması hamıya məlumdur.İnsanlar nitqin köməyi ilə öz təəssüratlarını mübadilə etmək,bir-birini başa düşməklə yanaşı,həm də öz arzu və istəklərini ifadə edirlər.Nitq insanların bir-birinə qarşılıqlı təsir göstərmələri üçün güclü vasitədir.Söz adamlarda inam yaradır, onları əməyə ,qəhrəmanlığa çağırır, pis əməllərdən çəkindirir,sevindirir,ağladır, güldürür və s.

Tərbiyəçinin fəaliyyətində nitq həm də uşaqların biliklərə yiyələndirilməsi silahına çevrilir.Sözün köməyi ilə uşaqlarda bu vəya digər psixi proseslər inkişaf edir,şəxsiyyətin xüsusiyyətləri formalaşır.

Təfəkkürlə bilavasitə bağlı olan nitq iki funksiyanı yerinə yetirir o, bir tərəfdən başqaları ilə ünsiyyət vasitəsidir ,digər tərəfdən,təfəkkür formasıdır.Belə ki,insan daxili nitqin köməyi ilə sözlərlə fikirləşir.

Uşaq ulu babalarımızın əsrlərdən bəri qoruyub saxladıqları və nəsillərdən-nəsillərə ötürdükləri bəşəri təcrübəni, biliyi və bacarığı nitqin köməyi ilə yaşlılardan öyrənir.Nitqin köməyi ilə uşağın şəxsi təcrübəsi zənginləşir,müstəqilliyi artır ,təfəkkürü inkişaf edir. Yaşlılarla,yaşıdları ilə ünsiyyət uşağın ümumi inkişafının mühüm şərtidir. Ünsiyyət və fikir mübadiləsi

silahı olan dil öz funksiyalarını yalnız nitqdə yerinə yetirir.Psixoloq A.A.Lyublinskaya yazır: dil ümumidir, nitq isə dildən fərdi istifadə prosesidir. Ona görə də dildən kasıb , həm də ondan zəngindir.İnsan öz ünsiyyət təcrübəsində adətən doğma dilinin zənginliyini təşkil edən lüğətin və müxtəlif qrammatik quruluşun yalnız kiçik bir hissəsindən istifadə edir.Bununla yanaşı nitq dildən zəngindir belə ki,insan hər hansı şey haqqında danışmaqla ona və müsahibinə öz münasibətini bildirir.Onun nitqi intonasiya ifadəliliyinə malik olub, ritmi surəti xarakter dəyişir. Adam işlətdiyi sözün mənasından çox şey deyə bilir .Lakin adamın öz fikrini kifayət qədər dəqiq və incəliklə deyə bilməsi ona təsir etməsi düzgün başa düşülməli üçün o ana dilinə gözəl yiyələnməlidir.

Ana dili məktəbəqədər yaşlı uşaqların əqli və əxlaqi tərbiyəsinin mənbəyi və vasitəsidir.Uşaq adətən iki yaşından danışmağa başlayır və 6-7 yaşında artıq ətrafındakılarla tam ünsiyyət saxlaya bilir.Uşağın nitqinin inkişafı onun ana dilinə yiyələnməsi deməkdir.Nitqin fornalaşması bu dövrdə ana dilini heç bir şey əvəz edə bilməz. Ana dili uşağı onu əhatə edən adamların xarakteri ilə içərisində yaşadığı cəmiyyətlə onun tarixi ilə onun istəkləri ilə heç bir tarixçinin tanış edə bilmədiyi şəkildə tanış edir.Buna görə də uşaqların düzgün rabitəli və ifadəli nitqə yiyələnmələri məktəbəqədər tərbiyənin başlıca vəzifələrindən biridir.

"Uşaq bağçasında tərbiyə proqramı" nda uşağın nitq inkişafına mühüm yer verilir .Bu dövrdə nitq inkişafı üzrə işlər dedikdə səs mədəniyyətinin tərbiyəsi lüğət ehtiyatının zənginləşdirilməsi genişləndirilməsi vəfəallaşdırılması nitqin qrammatik quruluşunun təkmilləşdirilməsi dialoji və monoloji (rabitəli) nitqin formalaşdırılması həmçinin savad təliminə hazırlıq nəzərdə tutulur.

Uşaq bağçasında uşaqlar ilk növbədə nitq ünsiyyətinin mühüm forması olan şifahi nitqə yiyələnirlər.Onlarda tədricən nitqi başa düşmək və fəal nitq inkişaf edir.

Məktəbəqədər dövrdə nitq inkişafı üzrə iş bir neçə istiqamətdə aparılır .Uşaq yaşlılar və yaşıdları ilə ünsiyyətdə nitqini təkmilləşdirir, nitq onun üçün psixi proseslərin yenidən qurulmasının əsası, təfəkkürün inkişaf etdirilməsinin silahı rolunu oynayır.

Uşaq hələ dil açanadək ,xüsusilə birinci il yaşlılarla emosional ünsiyyət saxlayır.Belə ünsiyyət forması nitqə yiyələnməyə hazırlıq dövrü hesab olunur. Bu dövrdə uşaq yaşlıların təbəssümünə təbəssümlə onların mehriban danışığına səs çıxarmaqla cavab verir . Yaşlılar danışarkən uşaq onların hərəkətlərinə də fikir verir və onun köməyi ilə səsin xüsusiyyətlərini,emosiyasını başa düşür.Uşaq həmin ünsiyyətdən xoşlandığı, yaxud narazı qaldığını ifadə edir . Bu

isə fikir deyil hissdir.Həyatını ikinci ilində uşağın xarici aləm haqqında təsəvvürü artdıqca onun hərəkətləri və fəaliyyətləri mürəkkəbləşir ,idrakı imkanları genişlənir. Belə vəziyyəti yalnız “ emosiyanın dili ilə” ifadə etmək çox çətin olur və ya mümkün olmur .Bürzamansözlü nitq köməyə gəlir.

Yaşlılar körpə ilə danışarkən onun diqqətini haqqında söhbət gedən əşyaya yönəldirlər. Beləliklə , emosiya arxa plana keçir o sözlə birlikdə əşyanın hərəkətin ifadə olunmasına xidmət edir. Altı- yeddi aylıq uşaq artıq sözlərin mənasını ,nitqi başa düşməyə başlayır.Nəticə etibarilə sadə, yarımçıq nitq ünsiyyəti meydana çıxır.Belə ki, yaşlı danışır uşaq isə mimika jest hərəkətlə cavab verir . Belə nitqin köməyi ilə uşağı sakitləşdirmək lazımi yerə göndərmək mümkündür.

Müraciət səsi tələffüz etmək yamsılamaq mühüm əhəmiyyət kəsb edir.Bu nitqi eşitməni ,sərbəst tələffüzün formalaşmasını təmin edir. Bunsuz sözü yamsılamaq mümkün deyil.

Uşaq ,adətən həyatının birinci ilinin axırında öz -özünə ilk sözlərini deyir: İl yarımdan sonra isə vaxtilə eşitdiyi və mənasını başa düşdüyü sözlər tədricən qeryri-fəal lüğətdən fəal lüğətə keçir . Onun nitqində iki sözdən ibarət ilk cümlələr də meydana çıxır.

Nitq inkişafı üzrə iş təfəkkürün inkişafından ayrılmazdır. Nitq inkişafı uşağa eşitdiyini düzgün başa düşmək mühakimə yürütmək sual vermək əşya və hadisələri tutuşdurmaq əqli neticəyə gəlmək imkanı verir.Uşaq bağçasında nitq inkişafı üzrə iş aparılarkən diqqət hərşeydən əvvəl uşağın lüğət ehtiyyatının zənginləşdirilməsinə yönləndirilməlidir . Dilin başlıca vahidi söz üzrə ilk düzgün təşkil olunmadan uşaqların lüğəti zənginləşdirilmədən nitq ünsiyyəti həmçinin təfəkkürün inkişafı mümkün deyil.Uşaq yenicə dil açdığı dövürdə az miqdarda sözlə öz ehtiyatını ödəyə bildiyi halda məktəbə hazırlıq dövründə fikirini ifadə etmək üçün daha cox və mürəkkəb dil vahidlərindən mühüm morfoloji vastələrdən və sintaktik formalardan istifadə etməli olur.Uşaq artıq 2 yaşında 300-ə yaxın 3 yaşında isə onun söz ehtiyatı 1000-i keçir.O bütün nitq hissələrindən istifadə edə bilir.Uşaq baxçasında uşaqların lüğət ehtiyyatının sürətlə zənginləşdirilməsi üçün əlverişli şərait yaradılır.Bu dövürdə uşaqların söz seçmələri onları əhatə edən şəraitdən ətraf aləmdəki əşya və hadisələrdən həmçinin ünsiyyətdə olduğu adamların nitqindən aslı olur.Tərbiyyəçilərin sistemli uşaqlarla məqsədyönlü ünsiyyət onların lüğətinə güclü təsir göstərər.Uşaq baxçasında tərbiyyə proqramında işlər hər şeydən əvvəl uşağın məişət lüğətinin zənginləşdirilməsinə ətraf aləmlə normal ünsiyyətinin təmin olunması üçün sözlərin seçilməsinə yönəldilir.Bu zaman uşaqda sözə maraq və həssaslıq artır.O bu və ya digər fikiri ifadə edərkən hansı sözü işlətməyin lazım gəlməsi eyni fikiri daha necə demeyin mümkün olması üzərində düşünür ona görə də uşağın dil açdığı dövürdən çoxmənalılıq sinonimlər üzrə sadə və praktik iş aparmaq lazımdır.Uşaqlärın sözlər necə tələfüz etmələrinə həmçinin nitqlərinin təmizliyinə də ciddi fikir veriimələdir. Nitqin səs mədəniyyətinin

tərbiyyə (səs mədəniyyətinin) tərbiyyə edilməsi məktəbə qədər dövürdə çox ciddi məsələlərdən biridir uşaq hər şeydən əvvəl dilin səs quruluşunun mənimsənilməsi nitq səslərini düzgün tələfüzü etməyi öyrenməlidir uşaq baxçasının hazırlıq quruplarında savad təliminə hazırlıq uşaqlarda şifahi nitqə yeni münasibət formalaşdırır.Nitq onun xarici səs cəhəti artıq şüurun predmenti olur. Uşaqlar cümlə söz və heca səslə praktik şəkildə tanış olurlar nitq səsləri üzərində iş dilimizin fonetikası və orfepiyasına əsaslanır.Bunuan əsasında sözlərin aydın səlis dilin normalarına uyğun tələfüzü formalaşdırır.Fonematik eşitmə nəfəs alma səsin tonunu ifadə etmə xüsusi ilə intonasiya vastələrindən səsin yüksəkliyi qüvvəsi sürəti məna vurğusu hasilə və s.Düzgün istifadə etmə də nitqin səs mədəniyyətinə daxildir.Çalışmaq lazımdır ki uşaqlar nitq ünsiyyəti prosesində davranış baxış durğu və müsahibinə müraciət formasım öyrənsinlər.

**Nitqin aramatik quruluşunun formalaşdırılması**-Əgər lüğət dilin tikinti materialıdırsa qrammatik sözlərin deyil sözlərin və onların cümlədə birləşdirilməsi formalarını müyəyənləşdirir.Qrammatika dilin konstruktiv modelini müyəyən edir.Uşaq ətrafındakılardan qrammatik cəhətdən düzgün tətbiq olunmuş nitq eşidir .O eşiddiklərini başa düşməklə qrammatik quruluşu dilin modelini mənimsəyir.Tərbiyyəçi dil təlimi sisteminə uşaqların diqqətini daha mürəkkəb və zəruri konstruksiyalara yönəldən morfoloji və sintaktik qaydaları möhkəmləndirən çalışmalar (cümlədə nəyin çatışmadığını tap) mən başlayım sən qurtar və .s daxil etməklə müəyyən nitq ptraktika yaradır tərbiyyəçi uşaqları tədricən yeni qrammatik formalarla tanış edir daha çətin formaları düzgün işlənməsini möhkəmləndirir və nəticə ehtibarı ilə qrammatik cəhətdən düzgün danışmağı öyredir.

**Danışıq nitqinin formalaşdırılması-**Dioloji nitq nitqi eşitmək və başa düşmək danışığı davam etdirmək suallara cavab vermək və müsahibinə sual vermək kimi konponentleri əhatə edir.Dioloji nitq prosesi müsahibi diqqətlə dinləmək səbirli olmaq nə dediyini başa düşmədən söhbətə qarışmamaq təmkinli olmaq və sair kimi mədəni keyfiyyətləri gözləməyi tələb edir.Tərbiyyəçi müxtəlif mövzularda maraqlı dioloqların təşkili üçün şərait yaradılmağa çalışmalıdır.Bir uşağın ana dilinə yiyələnməsində o zaman bəhs edə bilərik ki o fikirini rabitəli şəkildə istifadə etməyi bacarsın .Bunun üçün nitqdə məntiqi ardıcıllığı ifadəli iliyi intonasiyanı məntiqi vurğunu sözlərin dəqiq seçilməsini gözləmək lazımdır.Rabitəli nitqin ən yüksək forması olan monoloji nitq dioloji nitqin üzərində qurulur.Yazılı monoloji nitq üzrə iş uşaq baxçasmda bilə vasitə getməsə də ona müyəyəh hazırlıq işi aparılır bu məqsədlə orta qurupda uşaqlar mətin tətbiq edir daha yaxşı məktub hazırlamaq üzrə yarış keçirilir bəzən məktub kollektiv hazırlanır.Monoloji nitqin normal inkişafı uşağın cümlə qurma nağıl etmə prosesində məıntiqi ardıcıllığı rabitəliliyi gözləmək kimi keyfiyyətlərə müyəyənləməsi ilə müyəyən edilir.kiçik quruplarda tərbiyəçinin nağılı müxtəlif növ əyaaniliklə müşahidə

olunur.Uşaqlardan məzmunu və əyaniliyin köməy ilə nağılı danışmaq tələb edir.Orta qurupda uşaqlar tərbiyəçini dinləyir və yamsılayırlar .Böyük qurupda isə onlar artıq kiçik nağıllar tərtib etməyə başlayırlar.Bunun əsasında uşaqlara təmkinlə şüurlu öz sözləri ilə nağıl etmək ,dinləmək ,uşaq baxçasının uşaqları,valdeyinlər,başqa müəssələrin kollektivi qarşısında çıxış etmək bacarığı aşılanmalıdır.Bu uşaqların nitq inkişafına güclü təkan verir.Uşaq baxçasında uşaqlar bədii ədəbiyyatla tanış olurlar.Uşaqlara hələ kiçik yaşlarında bədii əsərlər dinləmək onu başa düşmək qəhramanları haqqında mühakimə yürütmək əsərin nə üçün xoşlarına gəldiyini izzah etmək öyrədilməlidir.Uşaq eşitdiklərini kor-koranə əzbərləmələrinə yol verilməməl i,ən maraqlı,asan,obrazları parçaları əzbər öyrənmək və ifadələri söyləmək tələb edilməlidir .Uşaq baxçasında kitab üzrə iş elə təmkinli edilməlidir ki,uşaqlarda kitaba,onu oxumağa dərin maraq tərbiyyə olunsun.Nitq inkişafı üzrə bu vəzifələrin hər bir tədrisin və tərbiyyəvi əhəmiyyətə malikdir.Uşaqların nitqinin inkişafında yaşlıların nitqi anlaşıqlı rola malikdir .Ona görə də uşaqların valideyinləri,tərbiyyəçilər və başqaları uşaqla ünsiyyətdə ədəbi dilin normalarına riyayət etməlidir. Məktəbəqədər yaşda uşaqların inkişaf etdirilməsi üzrə bütün işlər onların hərtərəfli inkişafını və məktəbdə müvəffəqiyyətlə oxumalarını təmin etməyə imkan verməlidir.

## Mövzu 2: Nitq inkişafi üzrə işin nəzəri məsələləri.

**Plan:**

1.Dilin mahiyyəti, vəzifələri.
2.Ferdinand de Sossur dil və nitq haqqinda.
3.Dil və nitqin oxşar və fərqli cəhətləri.
4.Uşağın dil və nitqdən istifadəsi.

Dil sosial hadisədir.Dil insanlar arasında mühum ünsiyyət vasitəsidir. Dil xalqin yaradıcı qüvvəsinin meydana gətirdiyi ən böyük nemətidir. Dildə xalq həyatinin dərinliyi öz əksini tapir, onun mahiyyəti əks olunur. Dil müxtəlif informasiyaların toplanması və qorunub saxlanması vasitəsi olmaqla cəmiyyətə xdmət edir. Dil öz təbiəti etibarı ilə intellekti

inkişaf etdirən, emosiya və ifadəni tərbiyə edən muhum faktordur.Dil insanla ətraf aləm arasında əlaqə vasitəsidir. Artıq çoxdan hamı tərəfindən qəbul edilmişdir ki, cəmiyyətdən kənar dil olmadığı kimi,dilsizdə cəmiyyət yoxdur.Dil həmişə kollektivə məxsusdur, o heçdə fərdi dillərn mexaniki  məcmuyu ola bilməz. Bunu nəzərə almayan dilçilər, psixoloqlar, fzioloqlar dil və nitq anlayışlarmmi qarışdırmışlar. Fizioloq və psixoloqların tədqiqatı, adətən, dillə deyil, nitqlə əlaqədar olur.Psixolqlar və metodistlər nitqin zənginləşdirilməsi və inkişafı üzərində işləyirlərsə, fiziloqlar, defektoloqlar nitq nöksanlarmm, onların baş vermə səbəblərinin aşkara çıxarılması və aradan qaldırılması üzərəndə işləyirlər. Butun bu hallarda söhbət psixofizioloji prosesdən getdiyindən dili nitqlə əvəz etmək olmaz.

Dil ilə nitq arasındakı münasibəti linqvistik baxımdan dəqiq müəyyənləşdirmək uzun müddət mıpnkun olmamışdır. İlk dəfə XIX əsrin axırlarında İsveçrə liiıqvisti Ferdinanjd; de Sössur dil və nitq arasındakı münasibəti duzgun qiymətləndirmişdir.  O yazır: "Dil fəaliyyətinin öyrənilmə ,bağlamağ öyrənir.Uşaq həmin elementləri yeni şəraitdə işlədir,onların əsasında özü də yeni fikirlər söyləyir və beləliklə, ana dilinin  qrammatik quruluşuna yiyələnir.Bu dövrdə uşaq valideynlərindən nə qədər söz öyrənirsədə,ana dilinə ,əsasən , öz nitq təcrübəsinin köməyi ilə yiyələnir.Deməli, dil ictimai hadisə olmaqla onun tarixi qədər qədimdir.İnsan cəmiyyətinin yarandığı ilk dövrlərdə ibtidai insanlar, əmək fəaliyyəti prosesində fikirlərini başqalarına çatdırmağa ehtiyac hiss etmiş ,əşya və hadisələri şərti işarələrlə adlandırmağa başlamışlar.Beləliklə də, dilin işarələr sistemi yaranmışdır.Ətraf aləmdəki əşya və hadisələrin kodları (şifrələri) olan fonemlər,morfemlər,sözlər,söz birləşmələri,cümlələr dilin belə işarələridir.

Dil işarələrini mənimsəmək onun maddi qabığını yadda saxlamaq,yəni onun səslənməsini və ona uyğun olaraq nitq orqanlarının əzələ hərəkətini yadda saxlamaq ,onun dil xaricində reallıqda  hansı əşya və

hadisəyə uyğun gəldiyini ,nəyi kodlaşdırdığını,başqa sözlə ,onun mənasını başa düşmək deməkdir.

Göründüyü kimi nitq başqaları ilə unsiyyət saxlamaq,həyatı dərk etmək, özünü idarə etmək üçün dilin leksik və qrammatik işarələrindən istifadə etmək deməkdir.

Cəmiyyət inkişaf etdikcə dildə inkişaf edir.Fikrin inkişafı dildə öz əksini tapır.Xalqın inkişaf tarixi ilə əlaqədar onun dilinin lüğət ehtiyatı zənginləşmiş,qrammatik quruluşu təkmilləşmişdir.

Hər bir adam öz fikrini ifadə etmək və başqalarının dediklərini anlamaq üçün ana dilindən istifadə edir.Dil təfəkkürün işinin nəticələrini möhkəmləndirən , insanların ünsiyyət , fikir mübadiləsi və cəmiyyətdə qarşılıqlı anlaşma silahı olan səs və lüğət qrammatik vasitələrinin sistemidir.Dil ictimai hadisədirsə, nitq onun varlığı formasıdır.Fikir və hisslərin ifadə olunması üçün dildən istifadə edilir.

"Uşağa nitq öyrətmək", dilin materiyasını mənimsəməklə ona kömək etmək (nitq orqanlarını məşq etdirmək), dilin leksik və qrammatik işarələrinin mənasının başa düşməsini asanlaşdırmaq (intellekti məşq etdirmək), leksik və qrammatik işarələrin

O yazır: "Dil fəaliyyətinin öyrənilməsi İki hissəyə ayrılır: onlardan biri əsas olmaqla, predmetl dildir, yəni mahiyyətcə ictimaidir və fərddən aslı deyil...,digəri ikinci dərəcəli olmaqla, predmeti nitq fəaliyyətinin fərdi cəhətdir, yəni danışıqda daxil olmaqla nitqdir".

Dil və nitqin sıx əlaqədə olduğunu göstərən Sössur nitqin olması üçün dilin, həmçinin dilin müəyyənləşməsi üçün nitqin zəruri oduğunu, tarixən nitq faktlarının həmişə dili qabaqladığını bildirir.

F.Sössur çox haqlı olaraq dil ilə ntqi fərqləndirir, dilin kollektivin malı olduğunu, cəmiyyətdən kənarda dil olmadığını, dilin ictimai hadisə olduğunu, onun strukturunda məcburi işarələrin olduğunu bildirir. O bildirir ki,nitq insanların bir-biri ilə ünsiyyət prosesində dili fərdi şəkildə (və ya qrup şəkildə) meydana çıxan ayrıca aktıdır (və ya bir sıra vərdişidir).

Dil və nitq eyni hadisənin bir- biri ilə sıx əlaqədə olan iki aspektidir. Müasir dilçilər nitq anlayışına yalnız şifahi deyil, həmdə yazılı nitqi daxil edirlər. Bundan əlavə, geniş mənada həmin anlayışa daxili nitq, yəni dil vasitələrinin (söz və s.) köməyi ilə təfəkkür prosesidə daxildir.Daxili nitq ucadan tələffüz olmadan "öz -

özünə " baş verir.
Bəs nitq mədəniyyəti nədir? Nitq fəaliyyəti insan orqanizminin nitqi qurumaq uçun zəruri olan psixofizioloji işlərinn məcmusdur"

Nitq fəaliyyətinin meydana çıxması, yəni nitq akdı normal ünsiyyətdə ikitərəfli prosesdən ibarətdir. Şifahi ünsiyyət zamanı yalnız danışmaq deyil ,həm də onunla paralel eşitmə qavrayışı və eşidilənləri anlama baş verir. Yazılı ünsiyyət isə nitq akdı, yazmaq ( görmə qavrayışı )və yazılanı oxumağı (anlamağı) əhatə edir. Dil anadan gəlmə xüsusiyyət deyil. O , körpəgldən başlayaraq tədricən yaranır. Uşaq ana dilinə nitq vasitəsidə yiyələnir. Bu proses tam şüurlu xarakter daşımır,əsasən intutiv şəkildə gedir.
Uşaq ətrafdakıların nitqini dinləyərkən müxtəlif şəraitdə tələffüz olunan müxtəlif fikirlərlə qarşılaşır,fonları əzbərləyir və tədricən dəfələrlə təkrar olunan elementləri- söz və ifadələri müəyyən məna ilə bağlamağı öyrənir. Köməyi ilə real vəziyyəti qiymətləndirməyi öyrətmək (emosya bə hissləri məşq etdirmək), ədəbi normaların yadda qalmasını,yəni dil işarələrinin (morfem, söz, söz birləşməsi, cumlə) nitqlə işlədilmə ənənəsini (birləşmə, qarşılıqlı əvəz olunma imkanını), onların səs və qrafik tərtibini asanlaşdırmaq.

Dil elmi, ədəbi kitablarda, lüğətlərdə, qrammatika dərsliklərində öz əksini tapır. N.Gəncəvinin, S.Vurğunun əsərləri, təbiətşunasliq, riyaziyyat dərslikləri, şagird inşaları və.s. Azərbaycan yazılı nitqinin, hər gun eşitdiyimiz televizya və radio verlişləri isə Azərbaycan şifahi nitqinin nümunələridir.

## Mövzu 3. Uşaq bağçalarında nitq inkişafı üzrə işin məzmunu.

**Plan:**
1.Məktəbəqədər dövrdə uşağın nitqinin məzmunu.
2.Hər yaş dövründə nitq inkişafı üzrə tərbiyəçiyə verilən tələblər.
3.Qvozdyev 1 yaşdan 7 yaşadək uşaqlarda nitq inkişafının mərhələləri.
4.Sərbəst nitq məşğələləri.

Məktəbəqədər dövrdə uşağın mənimsdiyi nitqin məzmunu hiss orqanları ilə ətraf aləmdə qavradıqlarının onun şüurunda inkiasından ibarətdir.Uşağın özü,onun bədən üzvləri,yaxın adamları,yaşadığı ev,uşaq bağçasının binası,yaxınlığdakı

park,meşə,dəniz,quşlar,kənd,şəhər,fəsillər,bayramlar üzərində müşahidələri həmçinin folklur nümunələri və bədii ədəbiyyatla aparılan işlər nitq inkişafının mənbələri hesab olunur.

Uşaq danışmağa 1 yaş yarımında başlayır,lakin o vaxtadək ünsiyyət saxlamaq üçün səs reaksiyasından istifadə edir.İlk həftələrdə yemək istəyəndə,yatağı yaş olanda,bir yeri ağrayanda ağlaması onun ünsiyyətə can atdığını göstərir.

Ay yarımlıq uşaq artıq nitq səslərini tələffüz etməyə başlayır.Bu özünü ilk zamanda qığıldamada göstərir.Sonralar körpə artıq tələffüz olunan nitq səslərini deyir:aaaa,ıııı,uuuu və s.Sonralar asan hecaların təkrarı özünü göstərir:ba-ba-ba,da-da-da.Nəhayət,birinci ilin axırlarında uşaq artıq müəyyən mənanı bildirmək üçün hecanı tələffüz edir.Məsələn:də səs birləşməsini gəl sözünü,a səsi ilə isə al sözün ifadə edir.

Körpə yaşın ikinci qrupunda(l yaşdan 1.5 yaşadək) ətraf aləmlə tanışlıq prosesində nitqi anlamaq,əşya,hərəkət və oyunları adlandırmaq,lüğət ehtiyyatmı genişləndirmək,sadə cümlələr qurmaq tələb olunur.

Tərbiyəçi hər bir yaş dövr üçün nitq inkişafı üzrə proqramda—"uşaq bağçalarında tərbiyə" proqramında nəzərdə tutulanları etməli,ayrı-ayrı məşğələlər və fəaliyyət növü üzrə konkretləşdirməlidir.Məsələn:birinci kiçik qrupda (1,5 yaşdan 3 yaşadək)soyadını,doğma və yaxın adamlarının adlarını,ev əşyalarının adlarını,onların vəzifələrini deyə bilmək tələb olunur.Tərbiyəçi "yaxın adam" anlayışına baba,nənə,dayı,əmi,xala,bibi;mebel anlayışına yalnız stol,stul;qab-qacaq anlayışına boşqab,stəkan,qaşıq sözlərini daxil etməklə kifayətlənmək olar.

Bu dövrdə ,əsasən,iki sözdən ibarət cümlə qurmaq öyrədilməlidir.Yağış yağır,ata gəldi,quş uçur və s.İkinci kiçik qrupda(3-4 yaş) tərəvəz və meyvələrin,müxtəlif əşyaların xüsusiyyətlərini adlandırmaq tələb olunur.

Uşaqların lüğət ehtiyyatına daxil ediləcək hər söz öncədən ölçülüb-biçilməli,tematik prinsipə əsasən qruplaşdırılmalı.işin xarakteri,aparılma vaxtı və yeri dəqiq müəyyənləşdirilməlidir.Hər hansı bir iş üzrə suallar verərək uşaqlar cavab verməyi bacarmalıdırlar.

Bəzən məşğələ və ya gəzintidə nitq inkişafı üzrə iş təşkil edilərkən uşaqlar nəzərdə tutulandan əlavə hadisə və əşyalarla qarşılaşır,onlara aid suallar ver irlər. Belə lildə, onların lüğəti hələ nəzərdə tutulmayan sözlər hesabına zənginləşir.

Məktəbəqədər yaşlı uşaqların nitqi üzərində elmi axtarışlar aparan Qvozdyev 1 yaşdan 7 yaşadək uşaqlarda nitq inkişafının mərhələlərini belə göstərmişdir:

1ci mərhələ-amorf söz,köklərdən ibarət cümlələr mərhələsi. 1 yaş 3 aylıqdan 1 yaş 8 aylığadəlc.Bir sözdən ibarət cümlələr və hecalar deyirlər. 1 yaş 8 aylığadan 1 yaş 10 aylığadək olan dövrədə bu mərhələyə aiddir.Bu zaman bir neçə söz və hecalardan ibarət cümlələr deyirlər.

2-ci mərhələ-cümlənin qramatik quruluşunun mənimsənilməsi mərhələsi. 1 yaş 10 aylığdan 2 yaş 1 aylığadəlc.Cümlələrdə tam,lakin şəkilçisiz yaxud,yalnız şəkilçili sözlər işlədilir.
2 yaş 1 aylığdan 2 yaş 3 ayhğadək.Cümlələrdə özlərinin kökə şəkilçi artırmaqla düzəltdikləri sözlərdən istifadə edirlər:hal şəkilçiləri,şəxs şəkilçiləri mənimsənilr.
2 yaş 3 aydan 3 yaşadəlc.Cümlələrdə sintaktilc münasibətləri ifadə etmək üçün köməkçi sözlər işlədilir.

3-cü mərhələ-Dilin qramatik sisteminin mənimsənilməsi mərhələsi.3 yaşdan 7 yaşadək.Nitqin qramatik quruluşu və səs cəhəti təkmilləşir.Lüğətin zənginləşməsi üçün əlverişli şərait yaranır.

Uşaq bağçalarında nitq inkişafı üzrə iş iki formada gedir:
1.nitq inkişafı üzrə xüsusi iş
2.Uşaqların öz yol daşlan,bağçanın işçiləri,xüsusən,tərbiyəçi ilə sərbəst ünsiyyətləri prosesində.
2-ci kiçik qrupdan başlayaraq uşaq bağçalarında nitq inkişafına həsr ounmuş xüsusi məşğələlər təşkil edilir.Belə məşğələlərdə əsas məqsəd uşağı həmin dövrədək ailədə,uşaq bağçasında öyrəndiklərini sistemə almaq və onun nitq inkişafı sahəsindəki qabilyyəti daha da artırmaqdır .Məşğələlər uşağın məhsuliyyətini artırır.Kollektivdə şeir deməyə,nağıl danışmağa alışdırır. Sərbəst nitq məşğələləri dedikdə,üş ağın baxçadakı fəaliyyəti ilə əlaqədar bir sıra işlər nəşərdə tutulur.Uşaq gəzinti, oyun, yemək, rəsm, müsiqi,bədən-tərbiyəsi və s. Prosesində nitq inkişafı üzrə müxtəlif işlər aparılır.

Proqramda nitq inkişafı üzrə işin qarşısında duran vəzifələri iki istiqamətdə ümumiləşdirmək olar:
A)Uşaqlara ana dilində düzgün və təmiz danışmağı öyrətmək.
B)Uşaqlarm nitqinin inkişaf etdirilməsi üzrə işi ətraf aləmlə,təbiətlə tanışlıq prosesində təşkil etmək.
Düzgün və təmiz danışmaq dedikdə,nitqin sərbəst, aydın ,rəvan, ifadəli, dialektizmlərdən azad,təmiz olması nəzərdə tutulur.

## Mövzu 4.Nitqin İnkişafı üzrə işə verilən tələblər

**Plan**

**1.**Nitq inkişafı üzrə işin başlanma vaxtı və ələqadar sahələri
**2.**Uşağın əxlaq tərbiyəsində ana dilinin rolu

**3.**Hər məşğələyə tərbiyəçinin hazırlığı

**Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişafı ciddi fəaliyyətlə müəyyən tələblərə cavab verən tərbiyə prosesi ilə bağlıdır. Bu tələblər hansılardır?**

1 .Nitq inkişafı üzrə işə vaxtında başlamaq lazımdır. Çünki uşağın beyni sürətlə inkişaf edir və onun funksiyaları formalaşır. Bu dövrdə baş beyin sisteminin funksiyalarını məşq etdirmək asandır. Bəzi tərbiyəçilərin və valideyinlərin nitq inkişafı üzrə işi usağin dil açdığı dövrə saxlaması ciddi nöqsan hesab edilməlidi.

2.Nitq inkişafı üzrə iş mükəmməl aparılmalıdır. Belə ki, hər bir yaş dövründə uşağın nitqə yiyələnmə imkanları dəqiqliklə nəzərə alınmalı, onun nitqinin inkişafı üçün kifayət qədər dil material nəzərdə tutulmalıdır.

3.Nitq inkişafi üzrə iş uşağın fəaliyyətinin bütün sahələri ilə əaqələndirilməiidir. Uşaq bağçasında müxtəlif təlim məşğələləri. Oyun, əyləncə, gəzinti, bayramlar, görüşlər və s. bu məqsədə xidmət etməlidir.

4.Uşaqiarın nitqinin inkişafı üzrə işin optimallaşdırılmasmı təmin etmək üçün nitqsituasiyasmın yaradılması zəruridir. Bunun üçün təbii nitq mühiti olmadıqda süni nitq şəraiti yaradılmalıdır.

5.Nitqi yamsılama prosesinə geniş yol açılmalıdır. Lakin tərbiyəçi yalnız bununla kifayətlənməməli, uşağın nitqə şüurlu yiyələnməsinə üstünlük verilməlidir.

6.Nitq inkişafı üzrə iş şagirdlərdə estetik hisslərin inkişafına xidmət göstərməlidir. Uşaqlar ana dilinə yiyələnməklə estetik cəhətdən gözəl,zəngin nitqə sahib olur, danışarkən intonasiyanı, nitqin ifadəliyini gözləməyi öyrədilir. Mahnıların oxunması, atalar sözləri, tapmaca,yanıltmac,şerlər, hekayələr və nağıllar üzrə iş bunun üçün gözəl imkanlar yaradılmalıdır.

7.Nitq inkişafı üzrə işin uşağın əxlaq tərbiyəsi üzrə işdən ayrılmazdı. Ana dili uşağın əxlaq tərbiyəçi uşaqlar ilə ünsiyyət başladığı dövrdə dildən həmin məqsəd üçün istifadə etməlidir.

8.Nitq inkişafı üzrə məşğələlər oyun bu və ya digər sahəsinə (səs mədəniyyəti,lüğət işi,nağıletmə,şeir əzbərləmək və s.) xidmət etməlidir. Bunula yanaşı kombinə edilmiş məşğələlər də keçirilməlidir.

9.Məşğələlər didaktik məqsəddən asılı olaraq da müxtəlif cür olur (yeni materialın verilməsinə,bilik bacarıq və vərdişlərin möhkəmləndirilməsinə,

biliklərin ümumiləşdirilməsi. Yoxlamaya həsr edilmiş, kombinə edilmiş və s.) təşkil edilməlidir.
10.Tərbiyəçi hər bir məşğələyə vaxtında, mükəmməl hazırlaşmalı, üzərində iş aparılacaq materialı diqqətlə seçməli. Məşğələ istifadə edəcəyi vəsaiti. İş formalarını. Metod və priyomları müəyyənləşdirməlidir.
11.Tərbiyəçi hər bir mərhələdə uşaqları nitq inkişafi səviyyəsini, onların fərdi xüsusiyyətlərini diqqətlə öyrənməli və iş prosesində unu nəzərə almalıdır. Məşğələnin hər bir mərhələsində ayrı-ayrı fərdlərin nitq fəallığına malik olmaq lazımdır.
12.Hər bir məşğələdə nitq inkişafı üzrə yükün optimal untensivliyi gözlənməlidir. Tərbiyəçi çalışmalıdır ki, təlim yükü uşaqların idrak imkanlarından nə ağır, nə də yüngül olsun.nitq inkişafı üzrə iş uşaqların gücünə müvafiq olmaqla onların fikri fəaliyyətini hərəkətə gətirməli, təfəkkürünü, yaddaşını inkişaf etdirməli, müstəqilliyini, müqayisə etmə, tutuşdurma, ümumiləşdirmə, əqli nəticəyə gəlmə bacarığını artırmalıdır.

## Mövzu 5.Nitqin mənimsənilməsinin pirinsipləri.

**Plan:**
1.Nitq üzüvlərinin vsjyazan əlin fiziki inkişafma diqqət.
2.Uşağın ana dilinə yiyələnməyinin təbii yolu.
3.Nitqin ifadəliliyinin qiymətləndirilməsi pirinsipləri.
4.Həssaslıq tərbiyyəsi pirinsipi.
5.Nitqin zənginləşməsi sürətinin ardıcıl artması pirinsipi.

Nitq inkişafı ana dili təliminin başlıca pirinsipidir bununla belə,nitq inkişafı üzrə işinin özünün də pirinsipləri qanuna uyğunluqları vardır.Nitqin mənimsənilməsinin pirinsiplərinin bilmədən lazımi vasitə,metod və piriyomlan seçmək çətindir.Bu pirinsiplər ilk dəfə L.Q.Fedorenko tərəfindən işlənilmişdir.Fedorenkoya əsaslanaraq mühüm pirinsipləri nəzərdən keçirək:

1. “Dilin materialına” nitq üzüvlərinin və yazan əlin fiziki imkanlarına diqqət Bu pirinsipi təlimin əsasına qoymaqla ona müvafiq vasitələr seçmək zərurəti meydana çıxır.Uşaqlar fonemləri artikuliyasiya səslərdən səsləri isə tələffüz etdiklərini necə danışdıqlarını eşitməli təsviri incəsənət savad təlimini məşğələlərində karandaş və qələmi necə işlədiklərini görməlidirlər.

2. Söz, ifadə və cümlələrin manasını başa düşmək və eyni zamanda leksik və qrammatik vərdişlərin inkişafı .Bu pirinsipə görə, o, didaktik materialı elə seçilməlidir ki, nitqin emosional çalarlığını hiss etmək qabiliyyətini inkişaf etdirsin.

Əgər uşaqlarda söz, ifadə və cümlələrin, leksik və qrammatik mənasını başa düşmək qabiliyyəti inkişaf etməsə də, bu prosesdə onlar eyni vaxtda həm leksik, həm də qrammatik vərdişlərə yiyələnməzlərsə ana dilin mənimsəyə bilməzlər. Uşağın ana dilinə yiyələnməsini təbii yolunu belə təsəvvür etmək olar, uşaq səs komplekslərini eşidir və hələ mənasını başa düşmədən onları tələffüz etdiyi səslər kompleksi leksik mənası nə düşünür, başqa sözlə onları varlığının müəyyən hadisələrinə aid edir, beləliklə, onun ilk cümlələri söz qeyri ardıcıllığa və qrammatik cəhətdən tam olmayan söz sıralarından ibarət olur, uşaqlar yazılmış gəlinciyi göstərib deyir: "Baba, bəbə düz" (Baba bəbəni düzəlt) Uşaq sözlərin mənasını başa düşməklə ilk sintaktik mücərrədləşmə aparır.Konstursiyalar qurur.Ana dilinin qrammatik forması təfəkkürü, maddi əsasıdır. Uşağın nitqini bu mərhələyə yiyələnməsi, müddəti onun nitq mühitindən nitq inkişafı üzrə işin necə təşkil olduğundan asılıdır.
3.Nitq in ifadəliliyinin qiymətləndirilməsi prinsipi. Bu prinsipə görə, emosional çalarlığını hiss etmə qabiliyyətini inkişaf etdirən, didaktik materialın seçilməsidir. Təlim piriyomları onları elə seçilməlidir ki, poetik nitq vərdişlərinin inkişafını emosionallığını təmin etsin.
Qrammatik və leksik mənalı mənimsəməklə uşaqlar xarici aləmin dildə necə əks olunmasım hiss edirlər. Onlar nitqin ifadəliliyi qaydalarını mənimsəməklə, dildə insanın daxili aləminin necə əks olunduğunu dilin köməyilə insan öz hisslərini necə qiymətləndirdiyini duyurlar.
Şagirdlər nitqə yiyələndikləri ilk günlərdən onu emosional rəngini də duymağa başlayırlar Bu dövrdə intonasiyanın ifadəliliyi daha asan mənimsəyir, ona görə də nitqin ifadəliliyi üzrə iş ilkin yaşlardan təşkil olunmalıdır.
4.Dilin hissetmə yaxud həssaslı tərbiyəsi prinsipidir. Bu prinsipin həyata keçirilməsi təliminin elə təşkilini nəzərdə tutur ki, uşaqların doğma dilinin faktlarını yadda saxlamalarmı və onladan nitqdə istifadə etmələrini asanlaşdırır.Dil faktlarını yadda saxlamaq üçün uşaqlar onları eşitməlidirlər. Dilə həssaslıq nə deməkdir? Ədəbi nitqdə səslənməni morfem səs söz birləşmələrindən nəyə görə belə istifadə etdiyi yadda saxlamaq dili hiss etmə və ya dilə həssaslıq yaranır.Dilin konstruksiyaları başa düşmək və nitqdə Onunla əməliyyat apara bilmək, dilə həssaslığın inkişafının başlıca şərtlərindən biridir. Uşaq bağçasında uşaqlara ana dilinin elementlərini şüurlu başa düşməsələr də, ənənəyə uyğun olaraq intuitiv şəkildə işlətməyi bacarmalıdırlar.
5.Yazılı nitqin mənimsənilməsinin şifahi və yazılı nitq əsasmda əlaqənin inkişafmdan asılıdır.Bu prinsip üzrə qurulmuş yazlı təlimin didaktik materealm elə seçilməsini nəzərdə tutur ki ,onun köməyilə uşaq özünün nitq orqanlarının (üz ,xirtdəy,ağ ciyər əzələləri əl və göz əzələlərini)hərəkətlərini əlaqələndirməyi öyrənsin.) 2)səs və hərflərin intonasiya və durğu işarələrinin oxşar və fərqli cəhətlərini müəyyənləşdirsin 3)nitqin şifahi formasından yazılı formasından və əksinə tez keçə bilsin.
6.Nitqin zənginləşməsi sürətinin ardıcıl artması prinsipi

Uşağın ana dilinə yiyələnməsi nitqin yeni sözlər və konstruksiyalar hesabma zənginləşməsi onun nitq vərdişlərinin xüsus ilə, fonetik, qrammatik vərdişlərinin təkmilləşdirilməsinə, daha sürətlə baş verir.
Bu prinsipi nəzərə alaraq, tərbiyəçi, uşağın inkişafına uyğun şəkildə didaktiki dil materialın dəyişməli, təlimin yollarını müəyyənləşdirməli, uşaqları ilə getdikcə müstəqil fəaliyyətə hazırlanmalıdır.

## Mövzu 6.Nitq inkişafının metod və priyomları.

**Plan:**
1.Əyani metod
2.Şifahi metodlar.
3.Praktik metodlar.
4.Nitq inkişafının priyomalrı.

Nitq inkişafının məlum metodları və piriomlari məktəbəqədər dövürdə spesfik məzmuna malikdir.Didaktikada işlənib hazırlanmış təlim metodları baxımından nitq inkişafı üzrə,tətbiq olunan metodları 3 qurupa ayırmaq mümkündür.
1.əyani materiallar;
2.inkişafın metodları;
3.praktik metodlar.

**Əyani metodlar-** Əgər üzərində nitq inkişafı işaparsaq obyektiv uşaqların bilavasitə müşahidə etmələri (gəzinti,ekuskirisya,bina ilə tanışlıq,müxtəlif əşyalara baxış,sadə hadisələrin müşahidəsi və.s)mümkündürsə müşahidə metodudan istifadə edilir.Əgər əşya və ya hadisənin;bilavasitə müşahidə edilməsi müşahidə edilmirsə,tərbiyyəçi məşqələyə onların şəkilini,modelini,maktini Bəzi uşaqları ekskurisyada bu və ya digər əşya yaxud hadisə üzərindəki müşahidələrin təhlil edib ümumiləşdirərkən bilikləri möhkəmləndirmək,rabitəli nitqi formalaşdırmaq məqsədi ilə də əyani metodlardan istifadə olunur.Onlar ekskurisyada gördüklərinə dair diafılimlərə,kinofılimlərə,şəkillərə oyunlara baxıb özləri həmin əşyaların şəkillərini çəkirlər.

**Şifahi metodlar-** tərbiyəçinin sözü ilə bağlıdır.Tərbiyyəçi hər gün proqramda nəzərdə tutulmuş vədi uşaqlar üçün oxuyur.Onun ifadələri obrazları qiraəti güclü təsir vasitələrindəndir.Uşaq baxçasında tərbiyyəçinin tez tez “rola girməsi” yəni bu və ya digər heyvani görüşünü hərəkətlərini .xarakterini səsini öz sözləri ilə ifadə etməsi zərurəti qarşıya çıxarır.

Kicik qurupdan başlayaraq tərbiyyəçi nağılları mühüm yer tutur.Nağıletmə prosesində əyani bəsait göstərilmir.Bununla uşaqlar diqqəti haqqında söhbət gedən məsələyə yönəlməyi öyrənirlər.

Müyəyən nitq vərdişlərini aşıladıqdan sonra uşaqları müsahibəyə cəlb etməlidirlər.Bu zaman onlarda dinləmək,sual vermək,cavab vermək .kollektiv söhbət və deyişmələrdən baş çıxarmaq bacarığı formalaşır.

Uşaq baxçasında şeirlərin əzbərlənməsi, oxunmuş hekayə və nağılların məzmununu yenidən nağıl edilməsi kimi daha mürəkkəb metodlardan istifadə olunur.

**Praktik metodlar-** Uşaqları yiyələndirərkən biliklərin nitq praktikasında düzgün tətbiqini tətbiq etmək məqsədi ilə praktik metodlardan istifadə olunur.Bu metod bir növ oyun xarakteri daşıyır.Bəzi məişət və təbiət hadisələriilə tanışlıq prosesində əmək xarakterli metodlardan istifadə etmək azımdır.Bu zaman əmək fəaliyyəti tərbiyyəçi və uşaqların sözü üzrə müşahidə olunur.Hər bir əmək prosesinin əşyanın adı deyilir.Onların hazırlanması mərhələləri təsvir olunur .Nitq inkişafı üzrə işlər bu metodların heç biri tam təcrid olunmuş şəkildə tətbiq edilmir.Bu bütün hallarda tərbiyyəçinin sözü mühüm rol oynayır.Tərbiyyəçi bu və digər məsələni uşaqların diqqətini lazimi əşya və hadisələrə yönəldir.Əyani metodlar tətbiq olunarkən sözdən istifadə edildiyi kimi söz metodlarının tətbiqində də əyanilik köməyə gəlir.Praktik metodlar isə bunların hər ikisini tələb edir .Hər bir metoda müyəyən piryomlar sistemi daxildir.Metodun tərkib hissisi olan piryomlar məşğələnin həmin metodla təşkilinə və qarşıda qoyulmuş məqsədə, çatmağa xidmət edir.Metodla piryomlar arasında kəskin sərhəd qoymaq düzgün olmaz.Tətbiq edildiyi şəraitdən hansı vəzifənin yerinə yetirilməsindən aslı olaraq eyni iş növündən gah metod gah da priyom kimi istifadə etmək mümkündür.Məsələn nitq inkişafı üzrə işlər prosesində danışıq nitqinin və biliklərin möhkəmləndirilməsinin başlıca metodu kimi stifadə olunan müsahibə metodu başqa hallarda (giriş müsahibəsftıdə,kino filimdən əvvəl və.s) bir iki suala cavab şəkilində qısa müddətli müsahibə şəkilində metodun bir piryomlu kimi işlənir.Şifahi ən geniş yayılan nitq nümunəsinin verilməsidir.Nümunə aydın təsirli uşaqların gücünə uyğun olmalı təkrara və yamsılamağa imkan verməməlidir.Nitq elementlərinin möhkəm yadda qalmasını təmin etmək üçün təşkil olunan təkrar çox vacib priyom sayılır.Bu priyomdan fərdi,kollektiv hətda xorla istifadə etmək lazımdır.Onun arxasında duran nitq inkişafı üzrə iş aparılarkən bəzən sözün mənasını başa salmaq üçün onun arxasında duran əşya hadisə və ya hərəkəti izah etmək ,aydınlaşdırmaq bəzən isə hərəkət etməli olduğunu göstərmək lazım gəlir.Bu baxımdan izah və nümayiş etdirmə də mühüm piryom hesab

olunur.Uşaqların nitqinin qiymətləndirilməsi də faydalı piriyomlar sırasına daxildir.Bu priyomu yalnız tərbiyyəçin uşaqların nitqi haqqında ətraflı fikir söyləməsi onu təhlil etməsi kimi başa düşmək azdır.Bu həmdə uşağın öz nitqini yoldaşlarının nitqini qiymətləndirməsini əhatə edir.

Tərbiyyəçinin uşaqlara suallarla müraciət etməsi həmçinin priyomdur,sualların tədricən produktiv əqli nəticə tələb edən (niyə ?nəyə görə?)və s. olması zəruridir.Suala qoyularkən məntiqi vurğu intonasiya və məzmun dəqiqliyi təmin olunmalıdır.

